# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ
# Q Ə R A R

**№192**
**Bakı şəhəri, 10 dekabr 2002-ci il**

## Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi haqqında

“Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 7 avqust tarixli 1003 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi işçilərinin ştat sayı 500 vahid müəyyən edilsin.

2. Naxçıvan Muxtar Respublikasında elmi-tədqiqat qurumlarının fəaliyyətinin gücləndirilməsi, Naxçıvanın tarixi, arxeologiyası, etnoqrafiyası və təbii sərvətlərinin öyrənilməsinə daha əlverişli şəraitin yaradılması və elmi mütəxəssislərin işə cəlb edilməsini stimullaşdırmaq üçün AMEA-nın Naxçıvan bölməsinin institutlarında vəzifə maaşlarına Milli Elmlər Akademiyasının institutlarındakı müvafiq maaşlara nisbətən 2 dəfə artım əmsalı tətbiq edilsin.

3. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi sədrinin aylıq vəzifə maaşı 1500.0 min manat, sədrin müavini – akademik katibin aylıq vəzifə maaşı 1200.0 min manat, bölmə aparatının digər işçilərinin aylıq vəzifə maaşları isə “Azərbaycan Respublikasının icra və məhkəmə hakimiyyəti orqanları işçilərinin əmək haqlarının artırılması haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 29 yanvar tarixli 28 nömrəli qərarının 1 nömrəli əlavəsinin 1-ci hissəsinə və 5 nömrəli əlavəsinə uyğun olaraq müəyyən edilsin.

4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti və Azərbaycan Milli Elmlər Akademiyası AMEA-nın Naxçıvan Bölməsinin fəaliyyətinin təşkili üçün lazımi tədbirlər görsünlər və bu qərardan irəli gələn digər məsələləri həll etsinlər.

5. Bu qərar 2003-cü il yanvar ayının 1-dən qüvvəyə minir.

**Azərbaycan Respublikasının**
**Baş naziri** **A. Rasizadə**

88 №-li nüsxə